"Azərlotereya" ASC (bundan sonra- şirkət) Məlumat Təhlükəsizliyi İdarəetmə Sisteminin tətbiqi və həyata keçirilməsində ümumi strategiyalar kimi aşağıdakıları qəbul edir və üzərinə götürür:

- Məlumat təhlükəsizliyini effektiv idarə etməklə məlumat təhlükəsizliyindən yarana biləcək zərərləri minimuma endirmək;
- Məlumata təhlükəsizliyinin pozulması insidentinin baş vermə ehtimalını azaltmaq və belə insident baş verərsə, əlaqələndirilmiş şəkildə cavab vermək;
- Kritik iş proseslərində baş verə biləcək fasilələrin qarşısını almaq və aradan qaldırıla bilmədikdə, onların hədəflənmiş bərpa müddətində yenidən işləməsini təmin etmək.
- Qanunvericilik, tənzimləyici və ya müqavilə öhdəliklərinə əməl etmək.
- Digər idarəetmə sistemləri ilə inteqrasiyada işləyərək şirkət hədəflərinə nail olunmasına töhfə vermək.

Şirkət risklərin dəyərləndirilməsi nəticəsində formalaşan, ümumi strategiyalara uyğun olaraq müəyyən edilən və davamlı təkmilləşdirməni təmin etmək məqsədilə hər il nəzərdən keçirilən Məlumat təhlükəsizliyi hədəflərini "Məlumat təhlükəsizliyi siyasəti"nə uyğun olaraq müəyyən etməyə razılaşır və öhdəlik götürür.
Şirkət Məlumat təhlükəsizliyi ilə bağlı məqsəd və hədəflər çərçivəsində fəaliyyətin həyata keçirilməsinə, Məlumat təhlükəsizliyinə cavabdeh şəxslərin müəyyən edilməsinə, Məlumat təhlükəsizliyi siyasətinin səmərəli şəkildə həyata keçirilməsinə və onlar üçün zəruri resursların təmin edilməsinə cavabdehdir. İnteqrasiya edilmiş İdarəetmə sistemi komandası sistemin koordinasiyasına, sistemin həyata keçirilməsinə və fəaliyyətin qiymətləndirilməsi fəaliyyətlərinə cavabdehdir.
Şirkət İnteqrasiya olunmuş İdarəetmə Sistemi Siyasəti və İnformasiya Təhlükəsizliyi Siyasətinə uyğun fəaliyyət göstərməyi öhdəsinə götürür.

***Məlumat təhlükəsizliyi prinsipləri:***
1. Şirkət məlumat təhlükəsizliyini təmin etmək üçün onun korporativ fəaliyyətini tənzimləyən siyasətlər, prosedurlar və ya əlaqəli sənədləri müəyyən edir, təsdiq edir, icra edir və maraqlı tərəflərin məlumatlandırılmasını təmin edir.
2. Şirkət qəbul etdiyi bütün məlumatları müvafiq qanunvericilik, tənzimləmə, müqavilə və İSO 27001:2013 standartının tələblərini nəzərə alaraq, məxfilik, bütövlük və əlçatanlıq səviyyələrinə uyğun olaraq təsnifləşdiririk. Fərdi məlumatlar "Gizli" kimi təsnif edilir.

3.Şirkət tədarükçülərdən (xarici təchizatçılardan) aldığı kommersiya sirri sayılan məlumatları "Kommersiya sirri haqqında" 04 dekabr 2001-ci il tarixli qanunun tələblərinə uyğun olaraq saxlayır və qoruyur;
4.Saxlanan və emal edilən məlumatlara şirkət əməkdaşları onların vəzifə təlimatlarına, biznes ehtiyaclarına və "bilməsi və istifadəsi üçün zəruri" prinsipinə uyğun olaraq giriş hüququ əldə edirlər.

5. Fərdi məlumatlar ancaq oyun iştirakçıları ilə bağlanan iştirak müqaviləsində və "Fərdi məlumatlar haqqında" 11 may 2010-cu il tarixli Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş hallarda üçüncü şəxslərə təqdim edilə bilər və transsərhəd ötürülə bilər.
6. website vasitəsilə toplanan məlumatlar, o cümlədən fərdi məlumatlar ISO/IEC 20000-1:2018, ISO 22301:2019, ISO/IEC 27001:2013, ISO/IEC 27017:2015, ISO/IEC 27018:2019, ISO/IEC 27701:2019 və ISO 9001:2015 overview standartlarına cavab verən "bulud"larda saxlanır və qorunur.
7. Şirkətdə "Təmiz masa, təmiz ekran siyasəti" həyata keçirilir və məlumatlar səlahiyyətsiz girişdən qorunan şəkildə təhlükəsiz şəkildə saxlanılır.
8. Şirkət özünün məlumat təhlükəsizliyi siyasətini mütəmadi olaraq yeniləyə bilər.
9. Şirkət üçüncü şəxslərin əqli mülkiyyət hüquqlarına hörmət edir və onları pozmur.
10. Şirkətin Məlumat təhlükəsizliyi idarəçiliyi sistemi davamlı təkmilləşdirilmə prinsipinə uyğun olaraq inkişaf edir.
11. İdarə olunan İnformasiya Sistemlərinin təkmilləşdirilməsinə yönəlmiş əməliyyatlar sıxlığın ən az olduğu günlərdə və saatlarda aparılır;
12. Əgər sizə bu Siyasətin pozulması halları məlum olarsa, bizə email göndərməklə, zəng və ya məktub yazmaqla müraciət etməyi xahiş edirik.

***Qorunan məlumatları hansılardır?***
Şirkətə daxil olan zənglər, müraciətlər, şikayətlər, xidmət təchizatçıları və maraqlı tərəflərlə (dövlət, investorlar və sair) bağlanan müqavilələr və sair üsullarla daxil olan və açıq olmayan məlumatlar qorunan məlumatlardır.

***"Kukilər":***
Ziyarətçilərin vebsaytımızdan rahat istifadə etməsini təmin etmək üçün məlumatların toplanması məqsədilə kukilərdən istifadə edilir. Bu texnologiya istifadəni idarə etməyə və təkmilləşdirməyə kömək edir, ziyarətçi üçün vebsaytdan rahat və funksional istifadə mühiti yaradır.

***Fərdi məlumatların işlənmə məqsədləri:***
Oyunların təşkili zamanı oyun iştirakçılarının (bundan sonra mətn üzrə- iştirakçı) fərdi məlumatları "Fərdi məlumatlar haqqında" 11 may 2010-cu il tarixli Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 06 sentyabr 2010-cu il tarixli qərarı ilə təsdiqlənmiş "Fərdi məlumatların mühafizəsinə dair Tələblər"ə uyğun olaraq işlənə bilər. Qanuna və İştirak Müqaviləsinə uyğun olaraq, fərdi məlumatlarınız bizə yazılı, şifahi və elektron üsulla təqdim edilməklə aşağıdakı hallarda, şərtlərlə və hüquqi əsaslandırma ilə işlənə bilər:

- Qanunvericiliklə tələb edilən vəzifələrimizi yerinə yetirmək məqsədilə, o cümlədən dövlət orqanlarının tələbləri ilə fərdi məlumatların onlara verilməsi üçün (qanunun 13.2 və 13.2-1-ci maddələri, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 177.3-cü maddəsi);

- İctimai təhlükəsizliyi təmin etmək üçün, o cümlədən "Lotereyalar haqqında" 05 mart 2004-cü il tarixli Azərbaycan Respublikası Qanununun və "Bədən tərbiyəsi və idman haqqında" 30 iyun 2009-cu il tarixli Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq İştirakçının 18 yaşına çatmış olduğuna nəzarət etmək üçün;
- "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" 10 fevral 2009-cu il tarixli Azərbaycan Respublikası Qanunundan irəli gələn öhdəliklərin icrası üçün;
- İştirak Müqaviləsinə uyğun olaraq, şəxsi məlumatların transsərhəd ötürülməsi üçün;
- İştirak müqaviləsinə uyğun olaraq, elmi və statistik tədqiqat məqsədləri üçün;
- İştirak müqaviləsinə uyğun olaraq İştirakçıya göstərilən xidmətin yaxşılaşdırılması və üstünlük verilən xidmətlərin müəyyən edilməsi üçün müxtəlif marketinq və sosioloji sorğuların və marketinq və/və ya satış kampaniyalarının keçirilməsi, ünvanlı reklam materiallarının tərtib edilməsi məqsədi ilə istifadə edilməsinə, o cümlədən eyni məqsədlərlə istifadə üçün üçüncü şəxslərə verilməsi;
- Qanunvericiliklə tələb edilən vəzifələrimizi yerinə yetirmək məqsədilə üçüncü şəxslərə verilməsi zərurəti yarandıqda;
- Bizə yazdığınız müraciət, şikayət və sorğuların araşdırılması və cavablandırılması üçün;
- vebsaytın təhlükəsiz və sağlam istifadəsini təmin etmək, onu təkmilləşdirmək üçün;
- Maliyyə hesabatlılığı və risk idarəçiliyinin icrası üçün;
- Qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

***Fərdi məlumatların verilməsi:***
Fərdi məlumatlar Qanunun 13-cü maddəsinin tələblərinə uyğun olaraq aşağıdakı qaydada verilə bilər:

- Fərdi məlumatların mülkiyyətçisi tərəfindən fərdi məlumatlar istənilən üçüncü şəxsə yalnız iştirakçının İştirak müqaviləsini qəbul etməklə həmin müqavilədə verdiyi yazılı razılığı ilə yol verilir. Qanunun 8.3-cü maddəsinə uyğun olaraq, iştirakçı vəfat etdikdə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ölmüş elan edildikdə, xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, habelə özü razılıq vermək iqtidarında olmadığı hallarda bu Qanunla tələb olunan razılıq müvafiq olaraq onun vərəsələri, qanuni nümayəndələri, valideynləri və ya himayəçilərindən biri tərəfindən verilir;
- açıq kateqoriyalı fərdi məlumatlar verildikdə, habelə fərdi məlumatların verilməsi iştirakçının həyat və sağlamlığının qorunması məqsədləri üçün lazım olduqda

və onun razılığını təxirə salınmadan almaq mümkün olmadıqda, fərdi məlumatların verilməsi üçün iştirakçının yazılı razılığı tələb edilmir.